

# Abşeron: sosial-iqtisadi inkişafın yüksək zirvəsində

**Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiya bölgələrin paytaxtla ahəngdar tərəqqisini indi tam təmin edə bilmişdir. Son dövrlərdə paytaxt Bakı ilə paralel, ölkəmizin digər şəhər və rayonlarinda iri layihələr həyata keçirilir, çoxsaylı müasir obyektlər istifadəyə verilir. Bununla əlaqədar Dövlət başçısının regionlara səfərlərinin intensivliyi də xeyli artıb. Təkcə bu ilin noyabr ayında İlham Əliyev beş rayon və şəhərə səfər edərək yeni obyektlərin açılışında iştirak edib. Onlardan biri də Abşeron inzibati rayonu olub. Noyabrın 16-da Prezident Abşeron Olimpiya İdman Kompleksinin və Masazır qəsəbəsində inşa edilən 5 nömrəli tam orta məktəbin qırmızı lentini kəsmiş və eyni zamanda, "Zəhmət-Ruzi" MMC-nin fəaliyyətilə tanış olmuşdur.**

Abşeron rayonu 200 mindən artıq əhalisi olan iri inzibati vahiddir. 1963-cü ildə sırf kənd rayonu kimi təsis edilən Abşeronda bu gün iqtisadiyyatın bir çox başqa sahələri də sürətlə inkişaf etməkdədir. Hazırda burada çoxsaylı qida məhsulları və inşaat materialları istehsal edən iri müəssisələr fəaliyyət göstərir, hündürmərtəbəli binalardan ibarət yaşayış massivləri salınır. Son bir neçə ildə rayonun mərkəzi sayılan Xırdalan şəhərində, digər kənd və qəsəbələrində köhnə yolların bərpası ilə yanaşı, yeniləri də salınmış, təhsil, səhiyyə, mədəniyyət ocaqları əsaslı təmir edilmişdir. Bununla yanaşı, rayon ərazisində çoxlu müasir tipli məktəb, xəstəxana və poliklinika binaları tikilərək abşeronluların istifadəsinə verilmişdir.

Bəli, bu gün Abşeron rayonu ölkəmizin ən sürətlə inkişaf edən bölgələrindən biridir. Xüsusilə, rayona İradə Gülməmmədova yeni icra başçısı təyin edildikdən sonra son iki ildə burada tikinti-abadlıq işləri daha keyfiyyətli mərhələyə çıxaraq intensivləşmişdir. Gəlin deyilənlərin sübutu kimi ötən il və 2017-ci ilin doqquz ayı ərzində görülən işlərlə tanış olaq.

2016-cı il ərzində rayonun daxili imkanları hesabına Xırdalan şəhərində Hacı Zeynalabdın Tağıyev, Mehdi Hüseynzadə, Qalubiyyə, Füzuli, Səttar Bəhlulzadə, Yusif Məmmədəliyev küçələrində abadlaşdırılma işləri həyata keçirilmiş, Misir Dostluq Parkı yenidən qurulmuşdur. Saray, Ceyranbatan, Mehdiabad qəsəbələrindəki parklar abadlaşdırılmış, şəhidlərin xatirəsinə abidə ucaldılmışdır. Masazır kəndində Heydər Əliyev və Zərifə Əliyeva, Aşağı Güzdək qəsəbəsində Həzi Cavadov, Mehdiabad qəsəbəsində Məhəmməd Əsədov, Novxanı kəndində Mehdi Hüseynzadə, Məmmədli kəndində Elçin Əliyev küçələrində daxili imkanlar hesabına abadlıq işləri görülmüşdür. Rayonun yaşayış məntəqələrində park və yol kənarlarında 57 mindən çox ağac və gül kolları əkilmişdir. Xüsusilə, Görədil, Fatmayı, Mehdiabad və Novxanı ərazilərində avtomobil yolu kənarı boyunca 10 min ədəd ağac və gül kolları əkilmiş, Bakı-Quba avtomobil yolunun rayon ərazisindən keçən hissəsində salınmış yaşıllıqların inkişafı məqsədilə əlavə olaraq 5 km uzunluğunda yeni suvarma xətti çəkilmişdir.

2016-cı il ərzində rayon ərazisində 197 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 141 milyon manat investisiya yönəldilmişdir. Ötən il Xırdalan şəhərində 20 çoxmənzilli yaşayış binası təmir olunmuşdur.

Əhalinin sabit elektrik enerjisinə təminatı ilə bağlı yaşayış məntəqələrində 69 ədəd yeni transformator quraşdırılmış, 41 ədəd transformator əsaslı təmir olunmuş, 755 ədəd dayaq və 148 min metr naqil dəyişdirilmiş, yaşayış məntəqələrində 65 min metr uzunluqda "SİP" kabelləşməsi aparılmışdır. Masazır kəndində yeni 2 dövrəli hava xətti çəkilərək istismara verilmiş, "Mehdiabad 1" hava veriliş xəttinin üzərindən yükün bir hissəsi çıxarılaraq yeni inşa olunmuş Fatmayı yarımstansiyasına keçirilmişdir. Xırdalan 220 yarımstansiyadan qidalan ikidövrəli yeraltı 2700 metr kabel yenisi ilə əvəz olunmuşdur.

2016-cı il ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 13.980 metr uzunluqda yeni içməli su xətləri çəkilmiş, 4.576 metr uzunluqda korroziyaya uğramış xətt dəyişdirilmiş, 7.221 ədəd su sayğacı quraşdırılmış, eləcə də 3.760 metr uzunluqda kanalizasiya xətləri yenilənmişdir. Podratçı təşkilatlar tərəfindən Saray bağ massivi, Digah və Görədil ərazilərində layihə üzrə su boru xətləri istismara verilmiş, Digah qəsəbəsində 20 min kubmetr tutumu olan su anbarı və 1483 metr uzunluqda 700 mm diametrli boru xətti inşa edilərək istismara verilmişdir.



Bu gün rayonda ən ciddi problemlərdən biri rayonun yaşayış məntəqələrində çirkab və yağış sularının axıdılması ilə bağlı şəbəkənin mövcud olmamasıdır. Ötən il intensiv yağışlar zamanı rayonun Xırdalan, Saray, Masazır, Hökməli ərazilərində yaşayış evlərini su basmış, sakinlər ciddi problemlərlə üzləşmişlər. Bununla bağlı rayonun daxili imkanları hesabına Masazır kəndində Sarı Aşıq küçəsində nasosxana tikilmiş, 2.5 km uzunluğunda kanalizasiya xətti çəkilərək magistral xəttə birləşdirilmişdir. Saray qəsəbəsindəki göl ətrafında 500-dən çox ailənin yaşayış evinin su altda qalmasına görə 900 metr uzunluğunda öz axını ilə kanalizasiya xətti çəkilərək gölün səviyyəsinin aşağı salınmasına nail olunmuşdur.

Göstərilən dövrdə yaradılmış əlverişli şəraitin nəticəsidir ki, rayonda 100-lərlə insanın işlə təmin olunduğu - Metal konstruksiyalar zavodu, "Araz" və "Bazarstore" supermarketlər şəbəkəsinin filialları, ət kəsimi və emalı, hədiyyəlik məmulatlar istehsalı müəssisələri, "Toyota" Abşeron Mərkəzi və digər iri sahibkarlıq obyektləri fəaliyyətə başlamışdır.

Bu gün qarşıya qoyulan ən mühüm vəzifələrdən biri də rayonlarda dotasiyalardan asılılığın minimuma endirilməsidir. Abşeron rayonu 2017-ci il də daxil olmaqla artıq altı ildir ki, dotasiya almadan yerli gəlirlər hesabına büdcənin formalaşdırılmasını təmin edir.

Ötən il rayonda sənaye məhsulunun həcmi 118 milyon manata çatmışdır. İstehsal olunmuş sənaye məhsulunun 70 faizi qeyri-dövlət müəssisələrinin payına düşür. Həmin müəssisələrdə çalışan işçilərin orta aylıq əməkhaqqı 384 manat təşkil etmişdir.

2016-cı ildə rayonda heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi xeyli artmışdır. Rayonun qəsəbə və kəndlərində əhali və fermer təsərrüfatlarında qaramalın sayı 23.274 başa, davarın sayı 132.884 başa, quşların sayı isə 1 milyon 188 min başa çatmışdır. Ötən dövr ərzində 2.326 ton ət, 47.388 ton süd, 2.857 sentner yun istehsal olunmuşdur. Yumurta istehsalı isə 203 milyon ədədə çatmışdır. Hesabat dövründə 44 min ton tərəvəz toplanılmışdır ki, bunun da 41 min tonu istixanaların payına düşür.

Vətəndaşların rifahının yüksəlməsinin başlıca şərti olan işsizlik probleminin aradan qaldırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. 2016-cı ildə Rayon Məşğulluq Mərkəzinin xətti ilə 1.014 nəfər işə düzəlmiş, 258 nəfərə işsizlik statusu verilərək müavinət təyin olunmuşdur.

2016-cı ilin ən əlamətdar hadisələrdən biri valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunların yerləşdirilməsi üçün Masazır kəndində 120 mənzilli yaşayış binasının açılışı və bu tədbirdə Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı olmuşdur. Həmin tədbirdə 120 mənzilli daha bir binanın da təməli qoyulmuşdur.

2016-cı ildə rayonun təhsil müəssisələrinin normal fəaliyyətləri üçün lazımi şəraitin yaradılması, infrastrukturun müasirləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Masazır kəndində Heydər Əliyev Fondunun dəstəyi ilə 800 şagird yerlik məktəb tikilib, inventar və avadanlıqlarla tam təchiz edilmiş və 7 oktyabr 2016-cı il tarixdə Respublikanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə açılışı olmuşdur.

Dövlət vəsaiti hesabına Xırdalan şəhərinin Mexdəstə yaşayış sahəsində, şəhərin 26-cı məhəlləsində, Hökməli qəsəbəsində və Novxanı kəndində dörd 6 qrupluq körpələr evi-uşaq bağçası istifadəyə verilmiş, Saray və Güzdək qəsəbələrində ümumtəhsil məktəbləri üçün əlavə sinif otaqları tikilmişdir.

Göstərilən dövrdə rayonda dövlət gənclər siyasətinin həyata keçirilməsi, idmanın kütləviliyin təmin edilməsi sahəsində də ciddi iş aparılmışdır. Qobu qəsəbəsində "Cavanşir" İdman Sağlamlıq Klubu gənclərin istifadəsinə verilmişdir. Bir neçə il bundan öncə ölkə Prezidentinin Sərəncamı əsasında ayrılmış vəsait hesabına Xırdalan şəhərində Olimpiya İdman Kompleksinin inşasına başlanılmışdır. 2016-cı il ərzində rayonun gəncləri 31 respublika və 21 beynəlxalq tədbirdə iştirak etmişlər. İdman yarışlarında gənclərimiz 164 medal, o cümlədən 87 qızıl medal qazanmış, bunlardan da 115-i Respublika yarışlarında, 49-u isə dünyanın 11 xarici dövlətində keçirilən beynəlxalq yarışlarda əldə edilmişdir.

Ötən il Abşeron rayonunda yaradılan bu sosial-iqtisadi inkişaf bünövrəsi bu ilin ilk aylarından uğurla davam etdirilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin proqram xarakterli nitqindən irəli gələn vəzifələr baxımından 9 ayda rayonda abadlıq-quruculuq, əhalinin elektrik enerjisi, içməli su, təbii qazla təchizatı, yol infrastrukturunun yaxşılaşdırılması, əhalinin sosial problemlərinin həlli istiqamətində işlər davam etdirilmişdir. Rayonun daxili imkanları hesabına Xırdalan şəhərinin Şəhriyar, Lütfizadə, Masazır kəndinin İsmət Qayıbov, Mirvarid Dilbazi, Mehdi Hüseyn, Digah qəsəbəsinin Xaqani, Xətai, Bakıxanov, Hökməli qəsəbəsinin Əliağa Vahid, Qobu qəsəbəsinin Səməd Vurğun, Novxanı kəndinin Salatın Əsgərova, Teymur Əliyev, Allahverdi Bağırov, Mehdi Hüseynzadə, Osman Sarıvəlli, Vəli Məmmədov, Saray qəsəbəsinin Hacıbaba Səmədov və Azadlıq, Aşağı Güzdək qəsəbəsinin Həzi Cavadov, Mehdiabad qəsəbəsinin Zərdabi, Məmmədli kəndinin Nəsirəddin Tusi, Molla Pənah Vaqif küçələrində, eləcə də Hökməli-Qobu, Mehdiabad-Fatmayı yollarının kənarlarında abadlaşdırma işləri görülmüş, Mehdiabad qəsəbəsində və Məmmədli kəndində park yenidən qurularaq istifadəyə verilmişdir. Aşağı Güzdək qəsəbəsində şəhidlərin xatirəsinə abidə ucaldılaraq ətrafı abadlaşdırılmışdır. Xırdalan şəhərinin Qalubiyyə küçəsində baxımsız qalmış ərazi abadlaşdırılaraq park salınmışdır.

Yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 16440 kubmetr çınqıl töküləərək yayılmış, 109 min kvadratmetr sahə asfaltlanmış, 2510 metr səki daşı düzülmüş, piyada səkilərinə 692 kvadratmetr tamet döşənmişdir. Saray qəsəbəsində Vəli Axundov küçəsinin başlanğıcından yeni qəbristanlığa gedən 2 km uzunluğunda yola, Masazır kəndində Hüseyn Arif və Mikayıl Müşfiq küçələrində 1600 metr uzunluğunda, Xırdalan şəhərində 5 nömrəli məktəbə gedən 600 metr uzunluğunda yola asfalt örtük verilmişdir. Məmmədli kəndində magistral yolun kənarı boyunca qrunt sularının axıdılması üçün 300 mm diametrli polietilen borularla 1000 metr uzunluğunda su ötürücüsü inşa olunmuşdur. Hazırda rayonun daxili imkanları hesabına Xırdalan şəhərində Heydər Əliyev prospektində səkilərin yenilənməsi, Ceyranbatan qəsəbəsinin Nizami, Gündüz Abdullayev, 20 Yanvar və Təbrik küçələrində yolların əsaslı təmiri işləri həyata keçirilir.

Ötən 9 ayda "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun və ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ayrılmış vəsait hesabına Mehdiabad-Digah-Məmmədli, Mehdiabad-Novxanı və Lökbatan-Qobu yollarının əsaslı yenidən qurulması işləri həyata keçirilmişdir. Bakı-Quba və Bakı-Şamaxı magistral avtomobil yollarının Abşeron rayonundan keçən hissəsində 4 yerdə yerüstü keçid inşa edilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun çoxmənzilli yaşayış binalarının təmiri ilə bağlı Ceyranbatan qəsəbəsi ərazisində əsaslı təmirə ehtiyac olan 12 çoxmənzilli yaşayış binası müəyyənləşdirilmiş, artıq bu binaların hamısında təmir işləri başa çatmışdır.

Əhalinin sabit elektrik enerjisi ilə təminatı məqsədilə yaşayış məntəqələrində 18 ədəd yeni transformator quraşdırılmış, 3 ədəd yanmış transformator bərpa edilmiş, 400 ədəd dayaq və 50 min metr naqil dəyişdirilmiş, yaşayış məntəqələrində 36.5 min metr uzunluqda "SİP" kabelləşməsi aparılmışdır. Qobu qəsəbəsində 110 kv-luq, Xırdalan şəhəri və Masazır kəndində isə 35 kv-luq yarımstansiyaların tikintisi, şəhər ərazisində 3 yarımstansiyanı birləşdirəcək dairəvi 35 kilovoltluq xəttin çəkilişi işləri başa çatmış, Xırdalan şəhərində əlavə olaraq 1 yeni 35 kv-luq yarımstansiyanın tikintisində son tamamlama işləri görülür. Qobu qəsəbəsində inşa olunmuş 110 kv-luq yarımstansiyaya Qobu və Hökməli qəsəbələrinin qoşulması təmin edilmiş və Güzdək qəsəbəsinin də gələcəkdə bu yarımstansiyaya qoşulması üçün Qobu-Güzdək yolunun üzərində yeni transformator məntəqəsinin tikintisi işləri həyata keçirilir.

2017-ci ilin 9 ayı ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 37 km uzunluqda yeni içməli su xətti, 21.4 km uzunluqda kanalizasiya xətti çəkilmişdir. Digah qəsəbəsinin Xətai küçəsində 200 metr kanalizasiya xətti bərpa olunmuşdur. Məmmədli kəndində yeni yaşayış massivi ərazisində 500-dən çox evin və magistral yolun subasması ilə əlaqədar Nazirlər Kabinetinə, Fövqəladə Hallar Nazirliyə edilmiş müraciətlərin nəticəsi olaraq 850 metr uzunluğunda 1000 mm diametrli xətt çəkilmiş və uzun müddət bununla bağlı mövcud olan problem tamamilə aradan qaldırılmışdır.

Azərbaycan Hökuməti ilə Səudiyyə İnkişaf Fondu arasında bağlanılmış kredit sazişinə əsasən cari ilin iyul ayından Xırdalan şəhərinin su-kanalizasiya sisteminin yenidənqurulması və genişləndirilməsi layihəsinin icrasına başlanılmışdır. Dəyəri 108 milyon manat olan bu layihənin icrası nəticəsində 2 il ərzində Xırdalan şəhərinin gələcək perspektivi də nəzərə alınmaqla 168 km uzunluğunda müxtəlif diametrli içməli su xəttinin, 108 km uzunluğunda kanalizasiya xətinin çəkilişi işləri həyata keçiriləcəkdir.

Cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən rayonun Novxanı, Mehdiabad, Digah, Pirəkəşkül və Qobustan yaşayış məntəqələrində su-kanalizasiya sistemlərinin çəkilməsi ilə bağlı başlanılmış işlərin davam olunması üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə vəsait ayrılmışdır. Artıq Qobustan kəndində 3.5 km uzunluğunda magistral su xəttinin çəkilişi işləri başa çatmış, digər ərazilərdə isə işlərə başlanılması üçün hazırlıq işləri görülür. Rayon icra hakimiyyətinin daxili imkanları və "Azərsu" Açıq Səhmdar Cəmiyyətindən verilmiş materiallar hesabına rayon sukanal idarəsi tərəfindən Xırdalan şəhərində və Ceyranbatan qəsəbəsində 16 çoxmənzilli yaşayış binasında zirzəmilərin kanalizasiya xətləri tamamilə yenilənmişdir. Hazırda Bağlar Sukanal İdarəsi tərəfindən Mehdiabad qəsəbəsindəki çoxmənzilli yaşayış binalarının zirzəmilərinin əsaslı təmiri işləri həyata keçirilir.

Göstərilən dövrdə Abşeron Telekommunikasiya Qovşağı tərəfindən tarif gəliri planı üzrə 5 milyon 628 min manat gəlir əldə edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz çoxdur. Vətəndaşların telefonla təmin edilməsi məqsədilə daxili imkanlar hesabına 42 eskiz layihəsi icra edilmiş, 38400 metr müxtəlif tutumlu kabellərdən və 384 ədəd yeni ağac və dəmir telefon dirəklərindən istifadə etməklə Xırdalan, Masazır, Görədil, Ceyranbatan, Qobustan, Digah, Mehdiabad, Saray, Hökməlidə 1584 abunəçi üçün yeni telefon xətt şəbəkəsi tikilib istifadəyə verilmişdir.

Ötən illərdə olduğu kimi, 2017-ci ildə də rayonda heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi xeyli artmışdır. Hesabat dövründə 774 hektar taxıl sahəsindən 1164 ton, 664 hektar tərəvəz sahəsindən isə 50227 ton məhsul əldə olunmuşdur. Rayonun iqtisadi potensialına uyğun sahibkarlar üçün yaradılmış əlverişli şəraitin nəticəsidir ki, bu il rayonun inzibati və təhkim olunmuş kənd təsərrüfatı torpaqlarında 10 sahibkar tərəfindən 45,3 hektar sahədə müasir tipli istixanalar tikilib istifadəyə verilmişdir. Rayonun qəsəbə və kəndlərində əhali və fermer təsərrüfatlarında qaramalın sayı 21732 başa, davarın sayı 107846 başa, quşların sayı isə 992 min başa çatmışdır. Hesabat dövrü ərzində 1822 ton ət, 31230 ton süd istehsal olunmuş, yumurta istehsalı isə artaraq 148 milyon ədədə çatmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun rayonun kənd təsərrüfatı torpaqlarında zeytun və badam bağları sahələrinin genişləndirilməsi istiqamətində işlər həyata keçirilir. Hazırda Aşağı Güzdək ərazisində 330 hektar sahədə zeytun əkilməsi ilə bağlı işlər sürətlə davam etdirilir. Artıq 22 min ədəd zeytun tingi əkilmişdir. Eyni zamanda, keçmiş 3 saylı zeytun sovxozunun ərazisində yeni badam bağlarının salınması məqsədilə 210 hektar torpaq ayrılmış və bunun artıq 80 hektarı salınmışdır.

Hesabat dövrü ərzində rayon məşğulluq mərkəzi tərəfindən 194 nəfərə işsizlik statusu verilmiş, 50 nəfər mərkəzin qeydiyyatında olan qeyri-məşğul vətəndaş Bakı Regional Peşə Tədrisi Mərkəzində "aşpaz", "kompüter istifadəçisi" və "xalçaçı" peşə kurslarına göndərilmişdir. Cari ilin ötən doqquz ayında Məşğulluq Mərkəzinin xətti ilə 823 nəfər işə düzəlmişdir ki, bunun da 132 nəfəri qaçqın və məcburi köçkünlər olmuşdur. Ötən illərdə olduğu kimi, hesabat dövründə də rayonun şəhid, əlil və imkansız ailələrinə diqqət artırılmış, rayon icra hakimiyyəti başçısı yanında büdcədənkənar inkişaf və bərpa fondundan 159 şəhid ailəsi, əlil və imkansıza 26300 manat yardım göstərilmişdir.

Rayon ərazisində məskunlaşmış 10390 məcburi köçkün ailəsinin qayğıları da diqqət mərkəzində saxlanılmışdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə keçirilmiş 9 mart 2017-ci il tarixdə qaçqınların və məcburi köçkünlərin problemlərinə həsr edilmiş müşavirənin nəticəsi olaraq rayon ərazisində məcburi köçkünlərin mənzillə təminatı sahəsində çox ciddi işlər görülmüşdür. Mehriban xanım Əliyevanın bu il iki dəfə Abşeron rayonu ərazisində inşa olunmuş 414 ailəlik 6 çoxmənzilli yaşayış binasının açılışlarında iştirakı məcburi köçkünlərə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

2017-ci ilin 9 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin normal fəaliyyətləri üçün lazımi şəraitin yaradılması, infrastrukturun müasirləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Masazır kəndində və Mehdiabad qəsəbəsində hər biri 1200 şagird yerlik məktəb binalarında işlər başa çatmaq üzrədir. Rayonun daxili imkanları hesabına Xırdalan şəhərinin 1 saylı uşaq bağçasının binası cari təmir edilmiş və ətrafı abadlaşdırılmışdır. Hesabat dövründə Masazır kəndində və Aşağı Güzdək qəsəbəsində yeni inşa olunmuş 120 yerlik körpələr evi-uşaq bağçasının fəaliyyətinə icazə verilmişdir.

Tədris fəaliyyətinə yaradılmış şəraitin nəticəsidir ki, bu il məktəbi bitirmiş məzunlardan 1007 nəfəri və ya 66.1 faizi respublikanın və xarici universitetlərinə daxil olaraq tələbə adını qazanmış, bunlardan 65 nəfəri 600 dən yuxarı bal toplamış, Xırdalan 5 saylı tam orta məktəbin məzunu Jalə Məmmədova maksimum nəticə göstərərək 700 bal toplamışdır. Rayon müəllimlərinin konfransında yüksək nəticə göstərən 65 nəfər tələbəyə rayon icra hakimiyyəti tərəfindən hədiyyələr verilmişdir. 5 oktyabr Müəllimlər Günündə ölkə Prezidenti cənab İlham Əliyevin Xırdalan 1 saylı tam orta məktəbin müəllimi Minə Hüseynovanı "Əməkdar müəllim", Mehdiabad 2 saylı tam orta məktəbin müəllimi Nailə Axundovanı "Tərəqqi" medalı ilə təltif etməsi bütün rayon müəllimlərinin əməyinə verilən qiymətin bariz nümunəsidir.

Əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırığına uyğun 2017-ci ilin fevral ayından may ayınadək 152390 nəfər sakin tibbi müayinədən keçirilmişdir. Müayinənin nəticəsi olaraq 2006 nəfər xəstəyə ambulator müalicə təyin edilmiş, 733 nəfər isə stasionar müayinə və müalicəyə göndərilmişdir. Hesabat dövründə rayon icra hakimiyyətinin yaxından köməkliyi ilə rayonda fəaliyyət göstərən idarə və təşkilatların könüllü donorluq aksiyası təşkil olunmuş və 215 nəfər qanvermə aksiyasında iştirak etmişdir.

Ötən müddət ərzində rayonda dövlət gənclər siyasətinin həyata keçirilməsi, idmanın kütləviliyin təmin edilməsi sahəsində də ciddi iş aparılmışdır. Bu gün rayonumuzda 6000 nəfərə yaxın yeniyetmə və gənc idmanın 27 növündə məşğul olurlar. 2017-ci ilin 9 ayı ərzində rayonun gəncləri 4 respublika gənclər tədbirində, 19 beynəlxalq və 39 respublika idman yarışlarında iştirak etmişlər.

İdman yarışlarında gənclərimiz 151 medal, o cümlədən 72 qızıl medal qazanmışlar. Cari ilin doqquz ayında idmançılarımız Xorvatiya, İran, Rusiya, Gürcüstan, Türkiyə, Ukrayna, Bosniya, Herseqovina, Finlandiya, Fransa, Yunanıstan və Litvada keçirilən beynəlxalq yarışlarda iştirak edərək 21 qızıl, 13 gümüş və 11 bürünc medal qazanmışlar.

Rayon icra hakimiyyəti və onun struktur bölmələrinin fəaliyyətində vətəndaşların müraciətlərinə, təklif, ərizə və şikayətlərinə baxılması mühüm yer tutur. 2017-ci ilin 9 ayı ərzində rayon icra hakimiyyətinə 1880 ərizə, təklif, və şikayət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 237 ədəd və ya 11 faiz azdır. Rayon icra hakimiyyətinin başçısı tərəfindən keçirilən qəbullarda 586 nəfər vətəndaşın müraciəti dinlənilmiş, haqlı tələblərinin təmin olunması üçün lazımi tədbirlər görülmüşdür.

2017-ci ilin iş planına uyğun ötən dövrdə rayon icra hakimiyyəti başçısı yanındakı Şura iclasları müntəzəm keçirilmiş, hesabat dövründə iş planında olan 22 məsələnin müzakirəsi təmin olunmuşdur.

İlin 9 ayında qazanılan nailiyyətlər əsas verir və şübhə doğurmur ki, abşeronlular dövlət başçımız cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində sosial-iqtisadi inkişaf sahəsində bu ili də yüksək uğurlarla başa vuracaqlar.

**Söhrab SƏFİYEV,**
**"Respublika".**









